İstehlakçıların hüquqlarının qorunması vacib məsələdir

Bu günlərdə Qəbələ Rayon İcra Hakimiyyətində Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyi Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti və rayon icra hakimiyyətinin təşkilatçılığı ilə «Hər bir istehlakçı öz hüquqlarını bilməli və tələb etməlidir» mövzusunda konfrans keçirilmişdir.

Konfransa Qəbələ Rayon İcra Hakimiyyəti başçısının inzibati ərazilər üzrə nümayəndələri, bələdiyyə sədrləri, sahibkarlar, ictimaiyyətin nümayəndələri dəvət olunmuşdu.

Konfransı giriş sözü ilə rayon icra hakimiyyəti başçısının müavini Arif Allahverdiyev açaraq konfransın müzakirəsinə çıxarılan mövzunun günümüzdə çox vacib bir məsələ olduğunu bildirdi.

Söz Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyi Antiinhisar Siyasəti və İstehlakçıların Hüqüqlarının Müdafiəsi Dövlət Xidmətinin rəis müavini Araz Əliyevə verildi.

Araz Əliyev çıxışında bildirdi ki təmsil etdiyi qurum istehlakçıların hüquqlarının qorunması üçün ardıcıl tədbirlər həyata keçirir. İstehlakçıların hüquqlarının müdafiəsi sahəsində ölkəmizdə hüquqi bazanın əsasını ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 19 sentyabr 1995-ci il tarixdə qəbul edilmiş «İstehlakçıların hüquqlarının müdafiəsi haqqında» Azərbaycan Respublikasının Qanunu və digər normativ hüquqi aktlar təşkil edir. Sonra natiq istehlakçıların hansı hüquqlarının olduğunu konfrans iştirakçılarının nəzərinə çatdırdı. Bununla belə qeyd etdi ki, istehlakçıların hüquqlarının qorunması təkcə dövlət qurumlarının yox, hər bir sahibkarın, ictimai təşkilatların, hər bir fərdi istehlakçının vəzifəsidir. Ancaq birlikdə istehlakçıların hüquqlarını qorumaq mumkundur.

Konfransın gündəliyinə çıxarılan məsələ ilə əlaqədar müzakirələrdə Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyi Antiinhisar Siyasəti və İstehlakçıların Huquqlarının Müdafiəsi Dövlət Xidmətinin əməkdaşları Kamran Umudov, Yusif Hüseynov, Nazirliyin Şəki-Zaqatala regionu üzrə şöbəsinin məsul işçisi Tural Xəlilov çıxış etdilər. Sonda dinləyicilərlə fikir mübadiləsi aparıldı.

Konfransı Araz Əliyev yekunlaşdırdı.

Qüdrət SƏMƏDOV.
Foto İ. Vəlizadənindir.

"Məişət zorakılığı və onun yaranma səbəbləri" mövzusunda tədbir

Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzinin təşkilatçılığı ilə 16 aprel 2016-cı il tarixdə, Azərbaycan Respublukasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı çərçivəsində Qəbələ rayon Yengicə kənd məktəbinin akt zalında, "Məişət zorakılığı və onun yaranma səbəbləri" mövzusunda tədbir keçirilmişdir. Qeydiyyat idarəsinin rəisi, rayon məhkəməsinin və polis şöbəsinin əməkdaşlarının iştirakı ilə keçirilən tədbirdə 40 nəfər iştirak etmişdir.

Tədbiri Yengicə kənd inzibati ərazi nümayəndəsi Xanlar Əzizov açaraq qonaqları təqdim etmiş, sözü Qəbələ UADM-in direktoru Rəna Mahmudovaya vermişdir. Rəna Mahmudova "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanunu barədə tədbir iştirakçılarını məlumatlandırmış, məişət zorakılığı ilə əlaqədar aparılan maarifləndirmə işlərinə baxmayaraq, bu sahədə hələ də problemlərin olduğunu, məişət zorakılığı nəticəsində ailədə, uşaqlarda psixoloji gərginlik yaranmasından söz açmışdır.

Tədbirdə çıxış edənlər-Qeydiyyat İdarəsinin rəisi Zinyət Bağırova, polis şöbəsinin əməkdaşı Azər Hüseynov və rayon məhkəməsinin əməkdaşı Eldar Soltanov məişət zorakılığı nəticəsində qeydiyyat idarəsinə, rayon polis şöbəsinə və rayon məhkəməsinə edilən müraciətlərdən, dağılan ailələrdən söz açmış, 2015-ci ildə boşanma ilə əlaqədar 151 müraciət olduğunu və bu müraciətlərin əksəriyyətinin məişət zorakılığı və ailə münaqişəsi zəminində baş verdiyini qeyd etmişlər.

Yengicə kənd icmasının üzvləri müzakirələr zamanı öz fikirlərini bildirməklə yanaşı, tədbir iştirakçılarından xahiş etdilər ki, bu sahədə kənddə vaxtaşırı daha geniş auditoriyada maarifləndirmə işinin aparılmasını təşkil etsinlər.

Multikulturalizm və Azərbaycan

Bildiyimiz kimi 2016-cı il Azərbaycanda «Multikulturalizm ili» elan edilmişdir. Multikulturalizm—çoxmədəniyyətlilik, bir çox fərqli mədəniyyətin bir arada yaşadığı cəmiyyəti təyin edən sözdür. O, ayrıca götürülmüş ölkədə və bütövlükdə dünyada müxtəlif millətlərə və məzhəblərə məxsus insanların mədəni müxtəlifliklərinin qorunması, inkişafı və harmonizasiyasına, azsaylı xalqların dövlətlərin milli mədəniyyətinə inteqrasiyasına yönəldilmişdir.

Elə bu səbəbdən biz də Qəbələ Rayon Mərkəzi Kitabxanası olaraq öhdəmizə düşən vəzifəni yerinə yetirməyə çalışmışıq. Kitabxanamızda "Multikulturalizm və Azərbaycan" başlığı altında sərgi-stend təşkil edilmişdir. Sərgidə rayonumuzda yaşayan azsaylı xalqların mədəniyyəti, adət ən-ənələri, yaşam tərzləri, mətbəxləri haqqında geniş məlumat verilmişdir. Qeyd edim ki, rayonumuzda yaşayan azsaylı xalqlardan udinlər, ləzgilər üstünlük təşkil edir. Udilər Qəbələ şəhərindən 20 km aralıda yerləşən Nic kəndində yaşayırlar. Udilər qədim Alban çarlığının yaranmasında mühüm rolu olan 26 alban tayfasından biridir. Bu kənddə kilsə və məscid də vardır. 25 ilə tikilən kilsə opostol Yeliseyə həsr olunub. 2003-cü ildə dövlət tərəfindən qeydiyyata alınan kilsə təmir olunaraq yenidən qurulub.

Müsəlmanların ibadəti üçün isə kənddə 2 məscid fəaliyyət göstərir. Məscidlərin hansı tarixdə tikildiyi məlum deyil, məlum olan odur ki, onların qapıları sovetlər dövründə qapalı olub. Ancaq müstəqillikdən sonra yenidən təmir olunaraq inanclı insanların istifadəsinə verilib. İndi bu məscidlərdə ərəb əlifbası və Quran oxumaq öyrədilir. Dinlərin qovuşduğu bu kənddə kilsə məscidlə yanaşı fəaliyyətdədir ki, bu da Azərbaycanın tolerant ölkə olduğunu bir daha dünyaya sübut edir.

Həmçinin ləzgilər də rayon əhalisinin bir hissəsini təşkil edir. Onlar əsasən Qəmərvan, Laza, Əmirvan, Yenikənd, Yeni Dizaxlı kəndlərində məskunlaşmışlar.

Bir sıra antik və orta əsr tarixçiləri, alimlər ləzgilərin mərd, mübariz, sədaqətli, sözübütöv, verdikləri vədə əməl edən, elmi və alimləri çox sevən, yaradıcı, son dərəcə qonaqpərvər, xarici görkəmləri daxili aləmləri ilə uyuşan, ucaboy, sarışın, mehriban, dərin düşüncəli, əliaçıq, ürəyi təmiz, qənaətcil xalq olduğunu söyləmişlər. Onlar öz dillərinə və adətlərinə çox sədaqətlidirlər və onları gələcək nəsillərə çatdırmaq üçün əllərindən gələni edirlər. Ləzgilərin əsas məşğuliyyətləri əkinçilik və maldarlıqdır.

Ləzgilər həmçinin mətbəxlərinin zənginliyi ilə də tanınmaqdadır. Bunlara misal olaraq lobyalı aş, kambar, tsikan, ləzgi çörəyi və s sadalamaq mümkündür. Ləzgilər öz lətifələri ilə nəinki yaşadıqları yerlərdə, hətta ləzgilərin yaşamadıqları yerlərdə də tanınırlar. Bu lətifələr dildən dilə dolaşır və insanlara gülüş bəxş edir.

Azərbaycan müstəqillik qazandıqdan sonra, 1992-ci ilin sentyabrın 16-da Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında yaşayan milli azlıq, azsaylı xalq və etnik qrupların hüquq və azadlıqlarının qorunması, dil və mədəniyyətinin inkişafı üçün dövlət yardımı haqqında" Fərmanı imzalanmış, bir sıra tədbirlər həyata keçirilmişdir. Bu baxımdan ləzgi mədəniyyətinin və dilinin inkişafına da qayğı artmışdır.

Beləcə kitabxanamızda azsaylı xalqların mədəniyyətini, adət-ənənələrini oxuculara çatdırmaq istəmişik. Sərginin açılması az müddət olsa da hər kəsin marağına səbəb olmuşdur. Biz də kiçik bir təşkilat dövlət qurumu olaraq multikulturalizmin əhəmiyyətini insanlara aşılamağa çalışırıq. Qeyd edim ki, sərgi il boyu davam edəcək.

Ülkər Qədirova,
Mərkəzləşmiş Kitabxana Sisteminin işçisi.